# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

01 (96) 17 yanvar 2018-ci il İctimai-siyasi qəzet


## Respublika Veteranlar Təşkilatında Dəyanət Səlimxanlının "İlahi Nur" kitabının təqdimat mərasimi keçirilmişdir

Respublika Veteranlar Təşkilatında Dəyanət Səlimxanlının "İlahi Nur" kitabının təqdimatı keçirilmişdir. Təqdimat mərasimində Dəyanət Səlimxanlı, akademik Vasim Məmmədəliyev, Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov, Təşkilatın əməkdaşları, xalq şairi Sabir Rüstəmxanlı, ehtiyatda olan polkovnik Sucəddin Abdullayev, ehtiyatda olan polkovnik-leytenantı Həmid Cəfərov, professor Miri Həsənov, professor İzzət Rüstəmov, Əməkdar jurnalist Ələkbər Abbasov, Şəhid Anaları Təşkilatının sədri Rəfiqə Əsgərova, ziyalılar, elm ictimaiyyətinin nümayəndələri, veteranlar və gənclər iştirak etmişdirlər.

"İlahi Nur" kitabı Paşayevlər nəslin min illik tarixinə, bugününə və bu nəslin layiqli davamçılarına, görkəmli yazıçı, böyük ədəbiyyatçı alim Mir Cəlal Mir Ələşrəf oğlu Paşayev, akademik Arif Paşayev və nəslin şərəfli ömür yoluna həsr olunmuşdur. "İlahi Nur" poemasında nəsilin şəcərəsindən olan Mir Məhəmməd, onun oğlanları Mir Cəlal, Mir Xəlil, Mir Vəli, Mir Ağa, Mir Əbülfəzin və nəslin sonra gələn nümayəndələrinin fəzilətindən bəhs olunur.

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik



Cəlil Xəlilov açaraq XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətləri olan görkəmli yazıçı, böyük alim və pedaqoq, xeyirxah insan Mir Cəlal Paşayevin keçdiyi şərəfli həyat yolu haqqında danışdı. "Əzablı ömür qisməti dünyaya gəldiyi ilk illərdən onu izləməyə başlasa da, Mir Cəlal Paşayevin çox çətinliklərə sinə gərərək, öz yolu ilə inadla, inamla irəliləyə bilib. O, 1918-1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil almış və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəllimınə daxil olub. Mir Cəlal Paşayev Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik etmiş və mənsub olduğu xalqın övladlarına Azərbaycanın tarixini, mədəniyyətini, zəngin keçmişini mənimsədib. Bu baxımdan Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri danılmazdır.

Görkəmli tədqiqatçının yuxusuz gecələrinin, gərgin zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri Azərbaycan ədəbiyyatşünaslıq elmini zənginləşdirmişdir".

Cəlil Xəlilov həmçinin Mir Cəlal Paşayevin davamçılarının onun yolunu uğurla davam etdirdiyini, Azərbaycan xalqının və dövlətinin inkişafı naminə əlindən gələni əsirgəməyən insanların heç bir zaman




unudulmayacağını vurğuladı. Cəlil Xəlilov Mir Cəlal Paşayev və onun nəsil şəcərəsi haqqında yazılan "İlahi Nur" kitabını Azərbaycan oxucuları üçün dəyərli mənbə və gözəl poeziya nümunəsi adlandırdı. Təqdimatı keçirilən kitabı Azərbaycanda dini tolerantlığın və eləcə də, İslam dininin yüksək səviyyəli inkişafının bariz nümunəsi kimi dəyərləndirdi.

Akademik Vasif Məmmədəliyev "İlahi Nur" kitabını dini baxımdan gözəl nümunə kimi qiymətləndirdi. Mir Cəlal Paşavin nəsil şəcərəsinin İslam dininin və Azərbaycan elminin inkişafındakı fəaliyyətlərini qeyd etdi.

Sonra çıxış edən müəllif tədbirin təşkilatçılarına və bütün iştirakçılarına təşəkkürünü bildirdi. O, kitabın ərsəyə gəlməsindən və gələcək yaradıcılıq planlarından danışdı.

Digər çıxış edənlər - xalq şairi Sabir Rüstəmxanlı, ehtiyatda olan polkovnik Sucəddin Abdullayev, ehtiyatda olan polkovnik-leytenantı Həmid Cəfərov, professor Miri Həsənov, professor İzzət Rüstəmov, Əməkdar jurnalist Ələkbər Abbasov, Şəhid Anaları Təşkilatının sədri Rəfiqə



Əsgərova, Yadulla Cümşüdov və digərləri "İlahi Nur" kitabının ədəbi və dini əhəmiyyətindən, Mir Cəlal Paşayevin və onun davamçılarının xalqımız və dövlətimiz qarşısında danılmaz xidmətlərindən danışdılar.

## Azərbaycan Ordusu düşmən üzərində parlaq qələbə qazanmaq əzmindədir

Əzəli Azərbaycan torpaqlarının bir hissəsinin işğal altında olması, Ermənistanın həyata keçirdiyi mənfur düşmənçilik siyasəti Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılmasının daim diqqət mərkəzində saxlanılmasını zəruri edir. Azərbaycan ictimaiyyəti və düşmən bilməlidir ki, Azərbaycan Ordusu bundan sonra da güclənəcək və istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Yaxın tarix bunu göstərib.

Bu fikirləri Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı çıxışında Azərbaycan Ordusunun hərbi qüdrəti ilə bağlı fikirləri barədə AZƏRTAC-a müsahibəsində deyib.

Respublika Veteranlar Təşkilatının sədr müavini bildirib ki, Azərbaycan Ordusu xalqımızın qürur mənbəyidir. Ordumuz Azərbaycan xalqının tarixi ənənələrinə sadiq qalmaqla gündən-günə daha da güclənir. Beynəlxalq reytinq göstəricilərində Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü ordusu olmaqla yanaşı, dünya miqyasında ən qüdrətli ordular sırasındadır. Bütün bunlar qətiyyətlə həyata keçirilən daxili və xarici siyasətin, uğurlu ordu quruculuğunun və güclü iqtisadiyyatın sayəsində mümkün olub.

Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrimizin gücünün artırılmasına daim xüsusi diqqət göstərir. Xarici ölkələrdən ən müasir hərbi texnikanın alınması, mütəmadi hərbi təlimlərin keçirilməsi, ordumuzun peşəkarlığının artırılması, düşmən mövqelərinə dəqiq və ölümcül zərbələrin endirilməsinə hazırlıq bu diqqətin bariz nümunəsidir. Ordu yüksək döyüş hazırlığına malik olmaqla daim düşmən mövqelərini izləyir, onları nəzarətdə saxlayır.

Ehtiyatda olan polkovnik deyib: "Bunlar sübut edir ki, ordumuz düşmən üzərində qələbə qazanmağa qadirdir. Silahlı Qüvvələrimiz peşəkar kadrlarla, yüksək hərbi təhsilli, vətənpərvər zabitlərlə komplektləşdirilib. Əsgərlərimizin döyüş hazırlığı, peşəkarlığı yüksək səviyyədədir. Maddi-texniki baza daim yenilənir, gücləndirilir, daha yaxşı nəticələrin əldə edilməsi üçün müasir silah və sursatla təmin edilir. Ordunun təminatının ödənilməsi üçün lazım olan, müasir tələblərə cavab verən hərbi texnika, silah-sursatın böyük əksəriyyəti Azərbaycanda istehsal edilir. Bu, ordumuzun hərbi-texniki təchizatı baxımından xarici dövlətlərdən asılılığını azaltmaqla yanaşı, iqtisadiyyatımızın inkişafına da mühüm töhfə verir. Bu gün Ordumuzun döyüş qabiliyyətinin, peşəkarlıq səviyyəsinin yüksəldilməsi ölkəmizin əldə etdiyi ən böyük uğurlardan biri hesab edilir. 2016-cı ilin aprel döyüşlərini bu uğurun göstəricisi hesab etmək olar. Ordumuzun qonşu dövlətlərlə birgə həyata keçirdiyi təlimlər də peşəkarlığın artırılmasına xidmət edir. Bütün bunlar döyüş hazırlığının yüksəlməsinə təsir edən mühüm amillərdir".

C.Xəlilov qeyd edib ki, Prezident İlham Əliyevin 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi dövlətin ölkəmizin tarixinə, qədim dövlətçilik ənənələrinə sadiqliyini sübut edir. Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti, ordu quruculuğu təcrübəsinin öyrənilməsi və gənc nəslə çatdırılması baxımından "Azərbaycan Xalq Cümhuriyyəti İli"nin elan edilməsi yüksək dəqiqliklə düşünülmüş addımdır.

AZƏRBAYCAN VETERANI

# Veteranlar ölkəmizin inkişafına, gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə mühüm töhfə verirlər

Yola salmağa hazırlaşdığımız 2017-ci il Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı üçün uğurlu hesab edilə bilər. İl ərzində veteranlarımız üçün ən yaddaqalan hadisə alman faşizmi üzərində Qələbənin 72-ci ildönümü münasibətilə Prezident İlham Əliyevin müharibə iştirakçıları ilə görüşü olub. Dövlətimizin başçısı həmişə olduğu kimi, veteranlarla səmimi söhbət edib, onların qayğıları ilə maraqlanıb. Həmin görüşdə veteranlarımız bir daha əmin olublar ki, Azərbaycan dövləti əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş veteranlara diqqət və qayğı siyasətini bundan sonra da uğurla davam etdirəcək.

Bu fikirləri Respublika Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov qurumun il ərzindəki fəaliyyəti ilə bağlı AZƏRTAC-a müsahibəsində deyib.

Hesabat dövründə təşkilatın yeddinci Plenumunun keçirildiyini və istefada olan general-polkovnik Tofiq Ağahüseynovun Rəyasət Heyətinin sədri vəzifəsinə təsdiq edildiyini xatırladan C.Xəlilov bildirib ki, həmin iclasda qurumun fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində mühüm qərarlar qəbul olunub.

Azərbaycanda veteranların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərdən danışan sədr müavini deyib ki, 2017-ci ilin noyabrınadək İkinci Dünya müharibəsi iştirakçılarının sayı 602 nəfər olub. Onlardan 16-nın yaşı 100-dən çoxdur. Hazırda respublikamızda 4742 məhəlli döyüş iştirakçısı, 3340 arxa cəbhə və 21 min 954 Silahlı Qüvvələr veteranı, 133 min 624 əmək veteranı var. Veteranların dul qadınlarının sayı 6683-dür. Veteranlarımızın sosial müdafiəsinin gücləndirilməsi istiqamətində bu il



Mərdəkandakı Müharibə və Əmək Veteranları Respublika Xəstəxanasında 3786 veteran müalicə kursu keçib.

Qurum itkin düşmüş müharibə iştirakçılarının axtarışı ilə də məşğul olub. Hazırda ölkəmizdə Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş 13 mindən çox şəxsə əmək pensiyaları, sosial müavinətlər, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri verilir. Bundan əlavə, həmin şəxslərin, eləcə də şəhid ailələrinin mənzil və fərdi evlərlə, müharibə əlillərinin isə minik avtomobilləri ilə təmin edilməsi üzrə sosial proqramlar icra olunur. Son iyirmi ildə 3646 nəfər müharibə əlilinə və şəhid ailəsinə mənzil və fərdi ev verilib. Ötən il 450 nəfər müharibə əlili sanatoriya və kurortlara göndərilib.

C.Xəlilov bildirib ki, veteranlarımız Azərbaycan dövlətinin yüksək diqqət və qayğısına cavab olaraq ölkəmizin ictimai-siyasi həyatında, gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində fəal iştirak edirlər. Bu istiqamətdə paytaxt Bakı



ilə yanaşı, bölgələrdəki ali və orta təhsil müəssisələrində tələbələr, şagirdlər, eləcə də cəbhə bölgəsindəki hərbi hissələrdə şəxsi heyət ilə intensiv görüşlər təşkil olunur, digər tədbirlər həyata keçirilir. Görüşlərdə əsas diqqət gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına, ordumuzun döyüş ruhunun artırılmasına, yeniyetmə və gənclərin hərbi xidmətə, Vətəni qorumağa daim hazır olmalarına yönəldilib. Bu baxımdan gənclərə ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətləri, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanın sürətli inkişafı, dünyada söz və nüfuz sahibinə çevrilməsi, ordumuzun qüdrəti, şanlı tariximiz, aprel döyüşlərində qazanılan qələbələr ilə bağlı ətraflı məlumat verilir.

Müsahibimiz, həmçinin qeyd edib ki, Azərbaycanın İkinci Dünya müharibəsində iştirakının araşdırılması və təbliği işinə böyük önəm verən qurum bu istiqamətdə çoxşaxəli fəaliyyət həyata keçirir. Belə ki, bu ilin martında Respublika Veteranları Təşkilatında "Azərbaycan Respublikası Xatirə Kitabı"nın 15-ci cildinin təqdimatı olub. Hazırda "Xatirə Kitabı"nın növbəti cildlərinin hazırlanması üzərində iş uğurla davam etdirilir.

Təşkilatın Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması işində fəal iştirak etdiyini vurğulayan C.Xəlilov deyib ki, veteranlarımız xarici ölkələrdə keçirilən tədbirlərdə Azərbaycanın faşizm üzərində Qələbəyə verdiyi mühüm töhfələrlə yanaşı, Ermənistanın Azərbaycana hərbi təcavüzü və bu işğalın ağır nəticələri barədə də ətraflı söhbət açıblar.

Veteranlarımız ölkəmizlə bağlı, eləcə də cəbhə xəttində baş verən hadisələrə dərhal reaksiya verir, bu məsələlərə dair mətbuatda intensiv çıxışlar edirlər. Veteranlar Təşkilatı bu ilin iyulunda Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı qəsəbəsini minaatan və qumbaratanlarla atəşə tutması nəticəsində 2 yaşlı Zəhra Quliyevanın və nənəsi Sahibə Allahverdiyevanın həlak olması ilə bağlı işğalçı ölkənin beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymadan cəbhə xəttində müntəzəm surətdə gərginlik yaratmasını, xüsusilə dinc sakinləri hədəfə almaq siyasətini sərt şəkildə pisləyən bəyanatlar verib. Bu bəyanatlar bütün nüfuzlu beynəlxalq təşkilatlara göndərilib.

Gələn ilin Azərbaycan, o cümlədən Respublika Veteranlar Təşkilatı üçün mühüm hadisələrlə əlamətdar olacağını qeyd edən C.Xəlilov deyib: "2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin, Silahlı Qüvvələrimizin yaradılmasının 100 illik, ümummilli lider Heydər Əliyevin 95 illik yubileyləri qeyd olunacaq, ölkəmizdə növbəti Prezident seçkiləri keçiriləcək. Eləcə də Böyük Vətən müharibəsinin iştirakçısı, Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynovun 95 illik yubiley mərasiminin də təşkili planlaşdırılır. Veteranlar həmişə olduğu kimi, builki Prezident seçkilərində də fəal iştirak edəcəklər. Onlar Prezident İlham Əliyevə hər zaman dəstək nümayiş etdirir, onun ətrafında sıx birləşirlər.

Bundan başqa, Böyük Vətən müharibəsində Azərbaycan milli diviziyalarının keçdikləri döyüş yolu haqqında bəzi universitetlərdə elmi-praktiki konfransların, Qələbənin 73-cü ildönümünə həsr edilmiş görüşlərin təşkili nəzərdə tutulur. Yeri gəlmişkən qeyd edim ki, Respublika Veteranlar Təşkilatı Qələbənin 75 illik yubileyinə indidən xüsusi hazırlaşır. Ölkədə veteran hərəkatının, veteranların sosial-hüquqi müdafiəsinin gücləndirilməsi, onların ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak etməsi, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi və digər istiqamətlərdə fəaliyyətimizi yüksəltməklə, ölkəmizin ümumi inkişafına töhfə verməyə çalışırıq. Bu, həm də bizim dövlətin yüksək qayğı və diqqətinə layiqli cavabımız olardı".

Respublika Veteranlar Təşkilatının yaradılmasının otuz illiyi münasibətilə nəzərdə tutulan tədbirlərdən danışan istefada olan polkovnik bildirib ki, bu əlamətdar hadisə ilə əlaqədar Təşkilatın muzeyi yaradılıb və otuz illik tarixi yolu əks etdirən kitab çapdan çıxıb. Yubiley tədbirinin gələn il keçirilməsi planlaşdırılır. Bununla bağlı Təşkilatın mətbu orqanı olan "Azərbaycan Veteranı" qəzetinin və "veteran.az" saytının imkanlarından da səmərəli istifadə olunacaq. C.Xəlilov təşkilatın fəaliyyətinin geniş işıqlandırılmasında və ölkə ictimaiyyətinə çatdırılmasında quruma dəstək olan KİV-lərə, o cümlədən AZƏRTAC-a təşəkkürünü bildirib.

Respublika Veteranlar Təşkilatının fəaliyyətinin səmərəli qurulmasında Prezident İlham Əliyevin veteranlara göstərdiyi yüksək diqqət və qayğının mühüm rol oynadığını vurğulayan C.Xəlilov yaradılmış şəraitə görə dövlətimizin başçısına veteranlar adından minnətdarlığını bildirib, onların dövlət siyasətini bundan sonra da fəal dəstəkləyəcəklərinə inamını ifadə edib.

# Veteranlar cəmiyyətdə birliyin və həmrəyliyin möhkəmləndirilməsinə xidmət edir

Dekabrın 30-da Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov Daxili Qoşunların Baş İdarəsində olub.

Daxili Qoşunların mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, C.Xəlilov daxili işlər nazirinin müavini - Daxili Qoşunların Komandanı, general-leytenant Şahin Məmmədov ilə görüşüb.

Daxili Qoşunların Komandanı Respublika Veteranlar Təşkilatının bütün üzvlərini 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib, onlara müvəffəqiyyətlər arzulayıb. Ümummilli lider Heydər Əliyevin veteranları cəmiyyətimizin dəyərli üzvləri kimi daim diqqət mərkəzində saxladığını vurğulayan general-leytenant Ş.Məmmədov diqqətə çatdırıb ki, gənc nəslin vətənpərvər ruhda tərbiyəsində onların fəaliyyəti böyük əhəmiyyətə malikdir.

Qeyd olunub ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev veteranlara



həmişə diqqət və qayğı göstərir, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir çox fərman və sərəncamlar imzalayır. Bu gün Daxili Qoşunların veteranlarını birləşdirən ictimai təşkilat olaraq, Daxili Qoşunların Veteranlar Şurasının da fəaliyyət göstərdiyini deyən komandan bildirib ki, veteranlarımız dövlətimizin hər bir çağırışına daim hazırdırlar.

C.Xəlilov qeyd edib ki, veteranlar həmişə Vətənimizə, dövlətçiliyimizə sadiqdirlər. Veteranların cəmiyyətimizdə birliyin və həmrəyliyin möhkəmləndirilməsinə xidmət etdiyini söyləyən sədr müavini 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təşkilat adından Daxili Qoşunlar Komandanlığını və şəxsi heyəti təbrik edib, xidmətdə nailiyyətlər arzulayıb.

## VETERANLARLA BAYRAM GÖRÜŞÜ

Vətən müharibəsi iştirakçılarına dövlətimiz tərəfindən göstərilən diqqət və qayğı, possovet dövlətləri məkanında ön yerlərdən birindədir. Xalqımızın Ulu Öndəri Heydər Əliyev Böyük Vətən müharibəsi iştirakçıları ilə Qələbə öncəsi təşkil olunan ənənəvi görüşlərin birində demişdir : "Siz əmin ola bilərsiniz ki, Azərbaycanın dövləti,



Azərbaycanın prezidenti sizin probleminizlə daim məşğul olur və bundan sonra da məşğul olacaqlar." Ulu Öndərin bu tarixi sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən ardıcıl olaraq həyata keçirilir və yerlərdə də bu qayda halını almışdır.

Masallı rayonu üzrə 2-ci dünya müharibəsi iştirakçılarının sayı 8 nəfərdir. Ən "cavan" veteran 92 yaşında, ən qocamanı isə 98 yaşındadır. Masallı rayon İcra Hakimiyyəti rəhbərliyinin tapşırığına əsasən rayonun müvafiq dövlət qurumlarının dəstəyi ilə veteranların hər biri ilə Masallı rayon Veteranlar Təşkilatının il sonu görüşü baş tutdu. Təşkilatın sədri iş ənənəsinə sadiq qalaraq gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə önəm vermək məqsədilə görüşə məktəblilərlə getmişdir.



Masallı rayon Veteranlar Təşkilatının sədri Məmmədağa Şiriyevin görüş haqqında qeydləri: "Görüşəcəyim " insanların kim olduğu və nə məqsədlə təşkil olunduğu barədə uşaqlarla izahat işi aparmaq yaddan çıxmadı. Elə bu baxımdan da uşaqların məntiqli suallarını cavablandırmalı oldum...

3 məktəbli ilə birlikdə rayonumuzun Böyük Vətən müharibəsi iştirakçıları Əlibala Kişiyev (Mahmudavar kəndi), Oruc Bədəlov (Hişkədərə kəndi), Məmmədhəsən Abbasov (Boradigah qəsəbəsi), Mürşüd Hüseynov (Xıl kəndi), Cənnət Teymurov (Kalinovka kəndi), Simran Quliyev (Xırmandalı kəndi), Atabala Hacıyev (Binə Xocavar kəndi), Qulamhüseyn Məmmədovla (Masallı şəhəri) yaşadıqları ünvanda görüşdük. Onları Dünya azərbaycanlılarının həmrəylik günü 31 Dekabr və Yeni 2018-ci il bayramları münasibətilə təbrik etdik, can sağlığı və uğurlar dilədik. Veteranlarımız dövlət Başçısı İlham Əliyev cənablarına dərin minnətdarlıq etdilər, hər biri 2018-ci ilin xalqımız üçün uğurlu olacağını və vətənpərvər gənc nəslin yetişməsində fəaliyyətlərini əsigəməyəcəklərini bildirdilər. Diqqət və qayğının göstərilməsinə görə razı qaldıqlarını dilə gətirdilər. Xatirə şəkilləri çəkdirdik və çox səmimi ayrıldıq. Uşaqlar da bu görüşdən çox məmnun qaldıqlarını bildirdilər və belə görüşlərin tez-tez olmasını arzu etdilər.

Qeyd edim ki, Xıl kəndinə girəndə əslən bu kənddən olan Azərbaycanın Milli Qəhrəmanı Elşad Eynulla oğlu Hüseynovun da məzarını ziyarət etdik. Elşad Hüseynovun qəhrəmanlığı barədə şagirdlərə məlumat verdim. Bu ziyarətimiz daha təsirli oldu, çünki kiçik Cəmil və İlham bir səslə bildirdilər ki, tez böyüyüb erməni qəsbkarlarına qan udduracaqlar. Mən də çox təsirləndim, sanki bu sözlərdən özüm də igidlik tərbiyəsi aldım".

## 90 Yaşlı - Canlı əfsanə



Məşhur heykəltaraş, Azərbaycan Respublikasının Elmlər Akademiyasının həqiqi üzvü Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, "Heydər Əliyev" ordeni laureatı-Ömər Həsən oğlu Eldarov...

Ömər Eldarov 1927-ci il dekabrın 21-i Dağıstan Muxtar Respublikasının Dərbənd şəhərində anadan olub. Azərbaycan Rəssamlıq Məktəbinin heykəltəraşlıq bölməsini qurtardıqdan sonra peşə biliyini artırmaq məqsədilə Leninqraddakı İ.Repin adına Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunun heykəltəraşlıq fakültəsində təhsilini davam etdirib. 1946-cı ildən etibarən Ömər Eldarov mütəmadi olaraq müxtəlif respublika, regional və beynəlxalq sərgi, müsabiqələrin iştirakçısı olub. Sənətkarın yaratdığı heykəllər dünyanın bir çox muzeylərində layiqli yer tutmaqdadır. Bu cür əsərlər sırasında şairə Natəvanın, şair Məhəmməd Füzulinin, şair-dramaturq Hüseyn Cavidin, Azərbaycanın görkəmli oftalmoloq alimi Zərifə Əliyevanın, professor İhsan Doğramacının heykəlləri, prezident Heydər Əliyevin, bəstəkar Üzeyir Hacıbəyovun, rəssam Səttar Bəhlulzadənin, yazıçı Süleyman Rəhimovun, akademik Ziya Bünyadovun və başqalarının qəbirüstü abidələrini göstərmək olar. Eyni zamanda sənətkar bir sıra kamera xarakterli, kiçik həcmli əsərlərin müəllifidir. Ömər Eldarov həm də Azərbaycanın ictimai və mədəni həyatının fəal iştirakçısıdır. 1958-1968-ci illərdə o Rəssamlar İttifaqının Katibliyinə üzv seçilib. 1970-ci ildə isə o, SSRİ Rəssamlıq Akademiyasının heykəltəraşlıq üzrə Bakıdakı yaradıcılıq emalatxanasının rəhbəri təyin edilib. Ömər Eldarov 1969-1973-cü illərdə Bakı Sovetinin deputatı seçilib və burada mədəni-maarif işi üzrə komissiyanın rəhbəri vəzifəsində çalışıb. 1995-ci ildə isə Ömər Eldarov müstəqil Azərbaycanın ali qanunvericilik orqanı olan Milli Məclisə deputat seçilib. Azərbaycan Rəssamlıq Akademiyasının rektorudur.

Ömər Eldarov bu illər ərzində istər SSRİ dövründə, istərsə də Azərbaycan dövlətinin ali mükafatına layiq görülmüşdür. 1980-ci ildə SSRİ Dövlət mükafatı, 1982-ci ildə Azərbaycan SSR xalq rəssamı, 1997-ci ildə "İstiqlal" ordeni, Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif olunmuşdur.

2014-ci il 16 aprel tarixində "Birlik ulduzları-2014" mükafatının laureatı olub. 10 iyun 2015-ci ildə akademik Ömər Eldarov 2015-ci Avropa Oyunlarının məşəlini Heydər Əliyev Mərkəzinə gətirmişdir.

20 dekabr 2017-ci ildə Ömər Eldarov Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə "Heydər Əliyev" ordeni ildə təltif olunmuşdur.

***İsmayıl İsmayılov***
***Respublika Veteranlar Təşkilatının Gənclərin hərbi vətənpərvərlik şöbəsinin mütəxəssisi***

AZƏRBAYCAN VETERANI

# Tanıdığımız redaktor – Teymur Əhmədov

*Ayıltmadı qələmim şu türk ilə əcəmi.*
*Nə qoydular yazalım, nə qırdılar qələmi.*

Öz doğmaları, yaxınlarından başqa kimsənin həyatında iz qoymayan insanların məncə xeyirxahlıqdan danışmağa haqları çatmır. Çünki belə məhdud dairəyə ünvanlanmış istənilən yaxşılığın arxasında fərdi maraq gizlənir. Elə insanlar da var ki, bəzən özləri də fərqinə varmadan neçələrinin həyatında iz salırlar. Onların varlığı yalnız ayrı-ayrı fərdlər üçün deyil, bəzən bütün xalqın diriliyi üçün şərtə çevrilir. Tariximiz belə şəxsiyyətlərlə həmişə zəngin olub. Sabahımız da ümidsiz deyil. Narahatlıq isə bu insanların dəyərini vaxtında verə bilməməyimizdir. Teymur Əhmədovdan yazmaq istəyim elə bu üzdən yarandı.

Onu tanıdığım ilk vaxtlarda, indi, ahıl çağında da ağsaqqalığı ilə seçilən Teymur Əhmədovla yolumun təsadüf, yaxud zərurətdənmi kəsişməsini həmişə bir şans saymışam. İxtisasca filoloq alim (Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib), qələm fədaisi olan bu sadə, təmkinli insanla bir yerdə işlədiyim ilyarım mənim üçün çox qiymətlidir. Eyni Universitetin jurnalistika fakültəsini bitirib, təyinatla rayon qəzetində 6 il işlədikdən sonra, necə deyərlər, əyalətdən mərkəzə gəlmişdim. Daha doğrusu, gəlmək məcburiyyətində qalmışdım. Və yeni işıq üzü görən, tamam fərqli məqsədlə yola çıxmış bir qəzetdə işə düzəlmək istəyim vardı. Filologiya elmləri doktoru, professor kimi elmi ictimaiyyətin yaxşı tanıdığı bir şəxsdən çıxarmaq fikrində olduğu qəzetə ölkənin mərkəzi mətbuatında 5-10 yazısı çap olunmuş birisini işə götürmək xahiş edilmişdi. Doğrudur, Azərbaycan radiosunun "Bulaq", "İyirminci əsr incəsənət" proqramlarında gedən süjetlər haqqında da ona məlumat verilməmiş deyildi. Ancaq bütün bunlar neçə namizədin arasından məhz mənim seçilməyim üçün yetərli sayıla bilməzdi. Nə gizlədim, "bizimlə əməkdaşlıq elə, baxarıq" kimi başdansovdu bir cavab gözləyirdim. Ancaq Teymur müəllim gözlənilməz qərarı ilə hər şeyi dəyişdi. Onun üçün növbəti, sıradan bir qərarla mənim həyatımda yeni mərhələ başlandı. İşsizliklə yanaşı, digər, daha ağır bir yükdən azad oldum.

... Sovet İKP MK-nın baş katibi M.Qorbaçovun imzaladığı fərmanla 1990-cı il yanvarın 14-dən Dağlıq Qarabağda, Azərbaycan və Ermənistanın sərhədyanı rayonlarında və Gəncə şəhərlərində yaranmış gərgin vəziyyətlə əlaqədar və guya hakimiyyətin zorla devrilməsi cəhdlərinin qarşısının alınması məqsədilə fövqəladə vəziyyət rejimi tətbiq edilməli idi. Bu fərmandan sonra Azərbaycanda, xüsusilə Bakıda baş verən hadisələr, ardınca isə 20 Yanvar qətliamı onun tətbiqini qısa müddətə də olsa, ləngitdi. Ancaq bu qanlı hadisələrin səhəri əvvəl Bakıda, ardınca sərhədyanı rayonlarda fövqəladə vəziyyət rejiminin tətbiqinə başlandı. Yerlərdə yaradılmış xüsusi komendantlıqlar tərəfindən milli-azadlıq hərəkatının üzdə olan fəallarının həbsinə, bir sıra iştirakçılarının isə təqibinə start verildi.

Həmin günlərdə, 1990-cı il yanvar ayının 22-də cəmi 34-35 min nəfər əhalisi olan Zəngilan rayonunda, şəhərin mərkəzi meydanında təşkil etdiyimiz mitinqdə 20 minə yaxın insan Bakıya qoşun yeridilməsinə etirazını bildirdi. Yüzlərlə şəxs mərkəzi hakimiyyətin Azərbaycana qarşı törətdiyi qanlı cinayətə etiraz əlaməti olaraq partiya biletlərindən imtina etdi, 400-dən artığı biletini yandırdı. Mitinq iştirakçılarının qəti tələbi ilə sərhədyanı rayonlarda fövqəladə vəziyyətin tətbiqi barədə qərarın Zəngilanda icrası dayandırıldı. Bu barədə qərarı xüsusi komendantlığın rəisi A.Yakovlev meydanda elan etmək məcburiyyətində qaldı.

Həmin hadisələr barədə rayon qəzetində «Xalq birliyinin gecəsindən reportaj»ımız dərc edildi. Yerli dövlət orqanlarının tapşırığı ilə baş verənlərin, gecəyarısına qədər davam etmiş mitinqin videoçəkilişi də aparılmışdı. Lakin həmin çəkiliş heç vaxt üzə çıxarılmadı. Bəlkə erməni işğalı vaxtı hansısa kabinetin küncündə unuduldu. Çünki artıq o dövrdə hakimiyyət orqanlarının bu çəkilişlərdən kimlərəsə qarşı istifadə etməsinin əhəmiyyəti qalmamışdı.

Zəngilandan olan fəallar yalnız 2 ay sonra həbs və təzyiqlərə məruz qaldılar. 1990-cı ilin mart ayı idi. Yaxın günlərdə rayonda həbslərin başlanacağı xəbərləri dolaşırdı. Bu məlumatların doğruluğunu rəsmi vəzifə sahiblərindən kimsə nə təsdiq, nə də təkzib etmək cəsarətində, bəlkə niyyətində də deyildi. On illərlə kommunist rejiminə xidmət etmiş insanların əksəriyyəti onun çökəcəyinə heç inanmırdılar da. Həmin vaxt rayon qəzetində şöbə müdiri işləyirdim. Redaktorun Bakıya növbəti kleşeləri (fotoşəkil onların üzərinə köçürülürdü) hazırlatmaq üçün ezamiyyə təklifi göydəndüşmə oldu. Rayonu tərk etdiyim günün səhəri həbslərin başlandığını və komendantlığın nümayəndəsinin bir neçə dəfə iş yerimə və evimizə gəldiyini öyrəndim. Mən artıq Bakıda idim və tələbə dostlarımın köməyi ilə yenicə nəşrə başlayan «Vətən səsi» qəzetində işə düzəlməyim gözlənilirdi. Bunun üçün bir neçə yazımı və sənədlərimi baş redaktor Teymur Əhmədova təqdim etmişdilər. Teymur müəllimlə söhbətimiz çox qısa oldu.

- Dədə, bizə elə gənc, ixtisaslı və qələmi olan jurnalistlər lazımdır. Səni işə götürürəm, elə bu gündən başla, - dedi.

Etiraf edim ki, işin bu sürətlə düzələcəyini gözləmirdim. Bu qocaman redaktor (onda heç 50 yaşı tamam olmasa da, Teymur müəllim mənə belə təsir bağışlamışdı), "bu gündən başla" deməklə özü də bilmədən məni real həbsdən xilas etmişdi. Elə o gün imzalanan əmrlə mən "Vətən səsi"nin Qarabağ və Mil-Muğan zonaları üzrə xüsusi müxbiri kimi işə başladım.

Həmin vaxt ölkədə qəzet bolluğu yox idi. İş axtaran, azsaylı iş yerləri üçün müxtəlif ünvanlara üz tutan, nüfuz sahibi hesab etdiklərinə ağız açanlar da vardı. Belə xahişlər Teymur müəllimə də ünvanlanmamış deyildi. Ancaq "Vətən səsi"ni Vətənin həqiqi səsinə çevirmək istəyən, onu yüz minlərin ümid yeri kimi görən peşəkar qələm sahibinin, elm adamının fikri qəti idi. Ölkədə az-çox tanınan, qələminə bələd olduqları ilə yanaşı, ən azı 3-4 yazısını bəyəndiyi, jurnalist təhsilli, heç olmasa yazıpozusu olanlar fərqli qəzet çıxarmaq üçün bir araya gətirilməliydi. Belə də oldu, «Vətən səsi» vətənin haqq səsinə haray vermək, soydaşlarımızın dərdlərinə, qayğılarına ortaq, yaralarına məlhəm olmaq niyyəti ilə yola çıxdı.

Məni işə qəbul etdiyinə görə bir çoxlarının etirazı ilə də qarşılaşmışdı.

- O, qaçqın deyil, Zəngilan rayonundandı. Niyə qaçqınları qoyub onu işə götürmüsən?



Sonralar bildim ki, belələrinə Teymur müəllimin cavabı çox qısa və konkret olubmuş: "Mənə qəzet çıxarmağa qaçqın yox, qaçqının dərd-sərindən, problemlərindən yazmağı bacaran jurnalist lazımdır".

Bu barədə o, özü nə qəzetin əməkdaşı olduğum, nə də sonrakı 28 il ərzində mənə heç nə deməyib. Baş verənləri başqalarından eşitmişəm. Həm də bunun daha çox düşdükləri vəziyyətin ağırlığından irəli gəldiyini düşünüb o fikirdə olanları da heç vaxt qınamamışam.

Teymur müəllim yerli dövlət orqanlarının qaçqınların yerləşməsi, problemlərinin həlli istiqamətində fəaliyyətinin diqqət mərkəzində saxlanılmasına xüsusi əhəmiyyət verir, əməkdaşları müntəzəm rayonlara ezamiyyələrə göndərirdi. «Vətən səsi»nin didərgin soydaşlarımızın real durumlarını əks etdirən təsirli, obyektiv yazıları əsasında yerlərdə görülən tədbirlər barədə məlumatlar mətbu sözün gücündən istifadənin son on illərdəki ən yaxşı nümunələri sırasında yer alır. Bu gün həmin vaxt çəkilmiş fotolara da sakit baxmaq mümkün deyil. Dədə-baba torpaqlarından amansızlıqla qovulmuş insanların acınacaqlı vəziyyətləri, məruz qaldıqları vəhşiliklər adamın damarlarında qanını dondurur.

«Vətən səsi»ndə o zaman ölkədə az-çox tanınan jurnalistlər də işləyirdi. Onların arasında tələbəlik illərindən tanıdığım Qafar Çaxmaqlı, imzasına bələd olduğum Bədirxan Başkeçidli (Əhmədov), indiki "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, Nazirlər Kabineti Mətbuat Xidmətinin rəisi Akif Əli, sonra televiziya sahəsinə keçən Miraslan Bəkirli, bu gün də «Vətən səsi»ndə çalışan Nəsib Qaramanlı, Bilal Ənsər və başqaları vardı. Bu yolda yürüyənlərin, "qələmin ən müqəddəs vəzifəsinin millətə xidmət" olduğunu sələflərindən əxz edənlərin arasında olmaq şərəf idi. Kimsə alim, publisist, tədqiqatçı, kimsə jurnalist kimi... Ancaq ən başlıcası neçə-neçə "vətən daşından" biri, sıravi vətəndaş kimi.

«Vətən səsi» jurnalist araşdırmalarına yer ayırması, ölkədə və regionda sürətlə dəyişən vəziyyəti düzgün təhlil edib proqnozlaşdırmaq bacarığı ilə başqa qəzetlərdən fərqlənirdi. Onun Azərbaycanın son 200 illik tarixinin bir sıra məqamları, xüsusən Xalq Cümhuriyyəti dövrü ilə bağlı, hətta elmi ictimaiyyətə də az məlum olan həqiqətlərə işıq tutan sanballı elmi-publisistik məqalələri bu gün də aktualdır. "Təcavüz davam edir" rubrikası altında sərhədyanı ərazilərdə baş verən ən son hadisələrlə yanaşı, Azərbaycana qarşı erməni təcavüzünün tarixi köklərini üzə çıxaran arxiv sənədləri və həmin dövrə dair məlumatlar da dərc olunurdu. «Vətən səsi»nin ilk dəfə ölkə oxucusuna çatdırdığı "Gülüstan", "Türkmənçay" müqavilələri kimi neçə-neçə tarixi sənədlər də sonrakı illərdə tədqiqatçılara, alimlərə mənbə kimi çox gərək oldu.

«Vətən səsi»nin tarixi xidmətləri sırasında ilk baxışda adi görünən bir geniş həcmli iş də var. Qəzet Ermənistandan qovulan ayrı-ayrı qaçqın soydaşlarımızın dilindən bütün faktları qeydə alaraq öz səhifələrində dərc edib, yaxud lazımı qaydada arxivləşdirib. Bu gün həmin insanların dilindən yazıya alınmış bu məlumatlar azərbaycanlılar və Azərbaycan dövləti tərəfindən Ermənistan dövlətinə qarşı beynəlxalq məhkəmə müstəvisində mülki və s. xarakterli davalar açılması üçün əvəzsiz sənədlərdir.

«Vətən səsi» təkcə qaçqınların problemlərindən, Ermənistanın və ermənilərin Azərbaycana, həmçinin azərbaycanlılara qarşı apardığı soyqırım, deportasiya və ekspansiya siyasətindən yazan bir qəzet olaraq məhdud çərçivədə qalmadı, o Azərbaycanla bağlı bütün mövzulardan yazdı. Özü də soyuq ağıl və qaynar qəlblə. Ən başlıcası isə obyektiv və peşəkarcasına. Bu, daha çox Teymur müəllimin xidməti idi. «Vətən səsi»nin Azərbaycanın o vaxtlarda ciddi ehtiyac duyduğu həqiqi ictimai-siyasi qəzet kimi çıxması, ölkə həyatının bütün sahələrini işıqlandırması asan başa gəlmirdi. Bunun əleyhinə olanlar, "qaçqın" adından, bu alınmayanda qəzetin siyasiləşməsinin yolverilməzliyi və digər bəhanələrdən istifadə ilə açıq şəkildə qarşı çıxanlar olurdu. Çox təəssüf ki, belə məqsədli maneçiliklər bəzən təşkilatlanmış forma alır, hətta bəzi rəsmilər tərəfindən dəstəklənirdi də. Teymur müəllim bütün bunlara özünəməxsus təmkinlə cavab verir, daha çox əsassız iradların səsləndirildiyi iclaslarda qəzetin ardıcıl mövqeyini səbrlə, ancaq qətiyyətlə müdafiə edirdi. «Vətən səsi»nin üzərinə götürdüyü missiyaya sadiq qalmasını hər şeydən üstün tutan, onun istiqamətinin dəyişdirilməsi cəhdlərinin qarşısını almaq üçün olmazın səy, enerji sərf edən bu çəlimsiz insanın zahiri soyuqqanlılığının arxasında möhkəm, sarsılmaz iradə dururdu. Elə bu iradə və qələmə sadiqlik idi «Vətən səsi»ni yüz minlərin, dil imkanları olsa, bəlkə də milyonların qəzetinə çevirən. O, baş redaktor vəzifəsindən getməyə də razı oldu, ancaq inandığı, özü üçün biryolluq müəyyənləşdirdiyi prinsiplərdən imtina etmədi. Bununla həm də həqiqi əqidə adamı olduğunu, şəxsi maraqlardan ucada durduğunu bir daha sübuta yetirdi.

Məncə, Teymur Əhmədovun kimliyini az-çox xarakterizə edən bu həqiqətlərin arasında onun redaktorluğu xüsusi vurğulanmalıdır. O, 150 ilə yaxın bir yol keçmiş Azərbaycan mətbuatının klassik redaktorluq ənənələrini öyrənməklə qalmayıb, özünü bu ənənələrə uyğun yetişdirməyə, həmin məktəbin layiqli nümayəndəsi olmağa çalışıb. Və birmənalı demək olar ki, bunu bacarıb.

Redaktorluğun çoxtərəfli vəzifə və funksiyalarına, hər mətbu orqanın özünəməxsus "mətbəx"inin təşkilinə gəlincə, Teymur müəllim bu məktəbi hələ "Sovet Ermənistanı" qəzetində müxtəlif vəzifələrdə işlədiyi 1954-1958-ci illərdə keçməyə başlayıb və 1965-1968-ci illərdə "Azərbaycan" jurnalı redaksiyasında şöbə müdiri kimi davam etdirib. Əlbəttə, Moskvada Ümumittifaq jurnalistika və fotoreportaj üzrə qiyabi lektoriyanın jurnalistika şöbəsini (1959-1961) bitirməsi də bu sahədə nəzəri və praktik vərdişlərinin gəlişməsində az rol oynamayıb. Redaktor kimi çıxardığı mətbu nəşrlərə gəlincə, "Vətən səsi" ilə yanaşı "Hikmət" və "Yeni fikir", 1995-ci ildən "Respublika" qəzetləri də var. AMEA Milli Münasibətlər İnstitutunda Elmi nəşriyyat şöbəsinin müdiri olan T.Əhmədov 1992-2003-cü illərdə eyni zamanda, "Elturan" ("Milli məsələlər") jurnalının məsul redaktoru olmuşdur. 2007-ci ildən isə 100 il sonra nəşri bərpa olunan Azərbaycan mətbuatında dərin iz qoymuş "Füyuzat" jurnalının baş redaktorluğu da elmi-nəzəri səviyyəsi nəzərə alınaraq məhz ona həvalə edilmişdir.

O, baş redaktor kimi qəzetdə gedən istənilən yazının, janrından asılı olmayaraq, ən kiçik xəbərə qədər belə faktların düzgün-düzgün əks etdirilməsini tələb edirdi. Kimisə qədərindən artıq tərifləyib az qala qəhrəmana çevirməyin tərəfdarı olmadığı kimi, başqasının insafsızcasına, daha dəqiqi qeyri-obyektiv tənqidə məruz qalması ilə də razılaşmırdı. "Ay əclaf, ağını çıxarmısan ki, deyirdi". Redaksiyaya daxil olan yazıların işlənməsində də eyni prinsip gözlənilir, bəzi müəlliflərin istinad etdikləri faktlar əksər hallarda yoxlanılıb sonra dərc edilirdi. Bu xüsusiyyətləri bildiyimiz üçün müəllif yazılarına da eyni məsuliyyətlə yanaşır, hər hansı yanlışa yol verməməyə çalışırdıq.

Nə gizlədim, qəzetə güzəran maraqlarının təminatçısı kimi baxanlar həmin dövrdə də yox deyildi. Beləlirinin hansı arqumentlərlə silahlanmasına baxmayaraq, baş redaktorun onlara qarşı mövqeyi sonadək dəyişməz qaldı. Bu, hazırda jurnalistika adına ləkə olan reketçiliyin təzahürlərinə qarşı qəti münasibətin ilk nümunələri idi.

Hazırda yaşının ağsaqqal çağında da Teymur müəllim öz prinsiplərinə sadiqdir. Qələmin ən ümdə vəzifəsi olan həqiqəti yazmaq, Vətənin, cəmiyyətin xeyrinə olan sözü deməkdən çəkinməmək. Ölkənin rəsmi mətbu nəşrlərindən olan "Respublika" qəzetinin baş redaktoru kimi bu məsuliyyətin nə demək olduğunu açıqlamağa isə yəqin ki, ehtiyac yoxdur.

Teymur müəllimin jurnalistliyində alim, tədqiqatçı olmasının xüsusi payı var. Bu təcrübələrin ən mühüm təsiri isə istənilən faktı, yaxud faktları mövcud reallıq zəminində təhlil süzgəcindən keçirərək, obyektiv dəyərləndirməsidir. Bu baxımdan, böyük azərbaycanlı Nəriman Nərimanovun tədqiqatçısı olmaq ona az şey bəxş etməyib. Xalqa, Vətənə xidmətin bir dərsini də bəlkə də, bu fədakar insanın həyatını, yaradıcılığını öyrənərkən keçib. Onun "Nəriman Nərimanov" kitabı rus, ingilis, fransız və ərəb dillərində 1984-cü ildə kütləvi tirajla nəşr edilib.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan şöbəsinin müdiri olan Teymur müəllimin tədqiqat işləri, elmi araşdırmaları barədə danışmaq tamamilə başqa bir yazının mövzusu olduğundan, bu barədə yalnız bir məsələni qeyd etmək istəyirəm. Onun həyatı ilə yaxından tanışlıq göstərir ki, bu şöbənin seçilməsi heç də təsadüfi deyil. Bu, Azərbaycanın özü kimi, onun ədəbiyyatını, mədəniyyətini də bütöv olaraq qəbul edən bir insanın həyat amalından qaynaqlanır desəm, qətiyyən mübaliğə olmaz. Ötən iki əsrlik bir dövrdə məcburi parçalanmanın doğurduğu problemlərin bir xalqın inkişafında yaratdığı fərqlər nəinki məişətdə, ədəbiyyatda, dildə, ümumən mədəniyyətdə də özünü büruzə verir. Ayrılığın, uzaqlaşmanın önlənməsi, proseslərin mümkün qədər vahid məcraya yönləndirilməsi qarşılıqlı əlaqələrin ən azı geniş mənada mədəniyyət sahəsində gəlişməsini zəruri edir. Teymur Əhmədovun alim kimi bu missiyanın həyata keçirilməsində danılmaz əməyi var. Bölünmüş, kiçildilmiş Vətənin dərdlərinə məlhəm qoymaqla, gələcəyinə olan ümidləri yaşatmaq.

AMEA "Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları problemi" üzrə Respublika Əlaqələndirmə Şurasının elmi katibi olması Teymur Əhmədov yaradıcılığının başqa bir istiqamətidir. Buraya 1961-ci ildə, gəncliyində İrəvanda çıxmış "Ülkər" adlı şeir və hekayələr kitabını, "Dostluq nəğməkarı", "Vedibasarın qanlı-qadalı günləri", "Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920-ci illər)" və s. kitab və adını çəkmədiyimiz monoqrafiyaları əlavə etsək məhsuldar yaradıcılığın mənzərəsi bir qədər də konkretləşər.

Alim-tədqiqatçı kimi danılmaz xidmətləri sırasında "Azərbaycan sovet yazıçıları (ədəbi sorğu kitabı)", "Azərbaycan yazıçıları (Ensiklopedik məlumat kitabı)" da var. Təkcə, bu irihəcmli və faydalı işinə görə, Teymur Əhmədov 1996-cı ildə "İlin layiqli ziyalısı" fəxri adına layiq görülməyi haqq edirdi. 2002-ci ildə "Tərəqqi" medalı alması da xidmətlərinin yüksək səviyyədə qiymətləndirilməsi idi. Bunlar həm də onun səmərəli əməyinin, fədakar fəaliyyətinin etirafıdır. Ancaq onun üçün mühümü, həyatı amalı saydığı əbədi missiyalardır. Ondan əvvəl başlanmış, bu gün layiqincə davamını cəsarət edib üzərinə götürdüyü o missiyalar ki, onlarsız nə dünənimiz olardı, nə də sabahımız mümkündür. Bu yolda uğur qazanması arzusuyla 90-ı, 100-ü haqla, yorulmaz insan, deyirəm.

Lətif Şüküroğlu.

# Mənalı və şərəfli ömür yolu - 80



Cəmaləddin Atamalı oğlu Zeynalov 1938-ci ilin fevral ayının 3-də Ağsu rayonunun Kəndoba kəndində anadan olmuşdur.

C.A. Zeynalov orta məktəbi bitirdikdən sonra, 1957-ci ildə Xalq Təsərrüfat İnstitutuna daxil olaraq 1961-ci ildə institutu əyani bitirərək iqtisadçı ixtisası almışdır. İlk əmək fəaliyyətinə "Azərkəndtexnika" birliyinin Ağsu rayon şöbəsində baş iqtisadçı işləməklə başlamışdır. Yüksək təşkilatçılıq qabiliyyətini hiss edən rayon rəhbərliyi, onu daha yüksək vəzifəyə irəli çəkmiş, Ağsu rayon Komsomol Komitəsinin birinci katibi seçmişlər. Komsomol komitəsinə rəhbərlik etdiyi dövrdə gənclərin təsərrüfatın müxtəlif sahələrində qazandıqları nəaliyyətlərə görə Azərbaycan LKGİMK-nin Keçici Qırmızı bayrağına layiq görülmüşdür.

1964-cü ilin dekabr ayında Ağsu rayon Partiya Komitəsində təlimatçı vəzifəsinə irəli çəkilmişdir. Rayon partiya komitəsində xeyli müddət işlədikdən sonra onu 1966-cı ilin fevral ayından etibarən rayonun yeni təşkil olunmuş "Komsomol" kolxozuna sədr vəzifəsinə seçmişlər. Bu vəzifədə 1971-ci ilin fevral ayına kimi işləmişdir. Sədr işlədiyi dövr kolxoz rayonun ən qabaqcıl təsərrüfatlarından olmaqla bir neçə dəfə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçısı olmuşdur.

C.A. Zeynalov Ədliyyə Nazirliyi nəzdində ixtisasartırma kursu keçərək 1971-1974-cü illərdə Ağsu rayon Kənd Təsərrüfatı idarəsində baş hüquq məsləhətçisi işləmişdir. 1974-1978-ci illərdə Ağsu rayon Sovxozlar birliyinin plan şöbəsinə rəhbərlik edərək həmin təşkilatda baş iqtisadçı vəzifəsində işləmişdir. 1979-1985-ci illərdə o, daha yüksək vəzifəyə məsləhət bilinərək Ağsu rayon Süd Emalı Zavoduna direktor təyin etmişlər. Həmin dövrdə rayonun maldarlıq sahəsi yüksək səviyyədə inkişaf edərək, rayon süd istehsalına görə Azərbaycan KPMK-nin və Nazirlər Sovetinin Keçici Qırmızı bayrağına layiq görülmüşdür.

1988-ci ildə Əmək Veteranı fəxri adına layiq görülərək, Əmək Veteranı medalı ilə təltif edilmişdir. 1999-cu ildən yaşa görə təqaüdə çıxmışdır. 2005-ci ildən etibarən dövlət qulluqçusu kimi təqaüd alır. 2008-ci ilin mart ayından Rayon Veteranlar Təşkilatının sədri məsləhət bilinmiş, Respublika Veteranlar Təşkilatının 2010-2012-ci illərdəki və 2013-cü il Ağsu rayon İcra Hakimiyyətinin qərarları ilə gənclərdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsində, veteranların huquqlarının müdafiə olunmasında və Rayon Veteranlar Təşkilatında xüsusi fəaliyyətinə görə fəxri fərmanlara layiq görülmüşdür. Ağsu rayon Veteranları Təşkilatının VI, VII, və VIII, IX konfransları zamanı o, yenidən Rayon Veteranlar Təşkilatının sədri seçilmişdir.

Veteranlara göstərilən diqqət və qayğıya görə Respublika Veteran Təşkilatı onu "Veteran həmrəyliyi" medalı ilə təltif etmişdir. Bundan əlavə C.A.Zeynalov gənclər arasında vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi ilə əlaqədar onun fəaliyyəti Respublika Veteranlar Təşkilatı tərəfindən yüksək qiymətləndirilərək 5 sentyabr 2017-ci il tarixli Təşkilatın Rəyasət Heyətinin qərarı ilə Həzi Aslanov 100 illik medalı ilə təltif edilmişdir. C.A.Zeynalov bir sıra çoxlu fəxri diplomlara layiq görülmüşdür.

C.A.Zeynalov Təşkilata rəhbərlik etdiyi dövrdə onun fəaliyyətini gücləndirmiş, veteranların dəqiq siyahısı dürüstləşdirilmiş, daimi komissiyaların fəaliyyətinə nəzarət gücləndirilmişdir. Rayon Veteranlar Təşkilatı veteranlara daima diqqət və qayğı göstərməklə onlarla daim yaxın təmasda olur, veteranların hüquqlarının qorunması sahəsində, gənclərdə vətəndaşlıq və vətənpərvərlik ruhunun yüksəldilməsində çox işlər görür. Respublika Veteranlar Təşkilatı onun fəaliyyətindən yüksək səviyyədə razılıq edir. C.A.Zeynalov ailəlidir. Onun 6 övladı var, hamısı ali təhsillidir. Müxtəlif peşəyə sahibdirlər. C.Zeynalovun 18 nəvəsi və 8 nəticəsi vardır. Nəvələrdən 7 nəfəri bakalavr və magistr elmi dərəcə almaqla müxtəlif peşə sahibləridir. Nəvələrdən 8 nəfəri ali məktəblərdə təhsil alır. Bunlardan 3 nəfəri Türkiyədə Ankara şəhərində Həcət-Təpə Tibb Universitetində təhsil alır.

Cəmaləddin Atamalı oğlu Zeynalovun 3 fevral 2018-ci il tarixdə 80 yaşı tamam olur. İndi onu qarşıda 80 illik yubleyi ilə əlaqədar mənalı, şərəfli ömür yolu gözləyir. Onu ad günü münasibətilə təbrik edirik, ona möhkəm can sağlığı arzulayırıq.

AZƏRBAYCAN VETERANI

# “Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti 2017-ci ilə yekun vurdu

Hesabat müşavirəsində Cəmiyyətin sədri Şahvələd Əliyev geniş məruzə ilə çıxış etmişdir. O, cənab Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə



2017-ci ildə həyata keçirilən ölkə və beynəlxalq əhəmiyyətli tədbirləri sadalayaraq dövlətimiz üçün yaddaqalan il olduğunu vurğulamışdır. Qarşıdakı ildə Azərbaycanda həyata keçirilməsi nəzərdə tutulan bir sıra mühüm tədbirləri diqqətə çatdırmışdır. Daha sonra demişdir ki, Möhtərəm Prezident, cənab Ali Baş Komandan İlham Əliyev öz çıxışlarında hər zaman gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasının təbliğini və ordumuzun əsas hərəkətverici qüvvəsi sayılan xüsusi hərbi ixtisaslı mütəxəssislərin və peşəkar hərbçi kadrların hazırlığı işini ön plana çəkmişdir. Buna görə də Cəmiyyət digər illərdə olduğu kimi qarşıya qoyulan vəzifələrin layiqli icrası üçün 2017-ci ildə də məsuliyyətlə çalışmışdır. Hesabat dövrünün bir sıra tədbirlərlə də yadda qaldığı və Cəmiyyət üçün əlamətdar il olduğu vurğulanmışdır. Cari ilin iyul ayında Cəmiyyətin 5 illik fəaliyyətini əks etdirən 25 dəqiqəlik sənədli hesabat filminin ərsəyə gətirildiyi və 80 səhifədən ibarət “Hərbi vətənpərvərlik” adlı hərbi ictimai-siyasi jurnalının dərc etdirildiyi diqqətə çatdırılmışdır. Xüsusi hərbi və texniki ixtisaslar üzrə mütəxəssislərin hazırlığı işi ilə yanaşı hərbi vətənpərvərliyin təbliği istiqamətində vətəndaşlar və çağırışçılarla aparılan ardıcıl işlər, nəzərdə tutulan və müvəffəqiyyətlə reallaşdırılan müxtəlif layihə və tədbirlər sadalanmışdır.

Bildirilmişdir ki, Nazirlər Kabinetinin müvafiq qərarlarının icrası ilə əlaqədar, Azərbaycan Ordusunun sifarişi əsasında hesabat ilində 1730 nəfər çağırışçı sürücü, 228 nəfər aşpaz xüsusi hərbi ixtisaslı mütəxəssis kimi hazırlanaraq xüsusi hərbi ixtisaskeçmə haqqında sertifikatla təmin edilmiş və təyinatı üzrə xidmət yerlərinə göndərilmişdir. Bundan əlavə təsərrüfat hesablı hazırlıq planına uyğun olaraq 31043 nəfər vətəndaş müxtəlif kateqoriyalar üzrə sürücü kadr kimi hazırlanmışdır ki, bu da ötən illə müqayisədə 14 faiz, yəni 3737 nəfər artıqdır.

Müşavirəyə dəvət olunan Azərbaycan Respublikası



Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov əməkdaşlara təqdim edilmişdir. O, “Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi” MMC-nin fəaliyyətini yaxından izlədiyini və Cəmiyyətin əhəmiyyətli işlər gördüyünü demişdir.

Çıxışının sonunda Cəlil Xəlilov Cəmiyyət sədri Şahvələd Əliyevə və fərqlənən əməkdaşlara Təşkilatın General Cəmşid Naxçıvanski yubiley medalını təqdim etmişdir. Cəmiyyətin sədri Şahvələd Əliyev isə öz növbəsində Cəlil Xəlilovu hərbi vətənpərvərlik işində fəal iştirakına görə Cəmiyyətin Fəxri Diplomu və qiymətli hədiyyə ilə mükafatlandırmışdır. Bundan əlavə işində fərqlənən əməkdaşlara mükafatlar verilmişdir.

Sonda 2018-ci ildə həyata keçirilməsi planlaşdırılan tədbirlər açıqlanmışdır.

# “Hər bir əsgər döyüşə Mübariz kimi, Fərid kimi köklənməlidir”

***Cəlil Xəlilov: “Xarici dövlətlərdən hərbi-texniki təchizat baxımından asılılığımız sürətlə azalmaqdadır”***

***“Müdafiə Sənayesi Nazirliyinin yaradılması strateji uğurlarımızdan biridir”***

***“SHXÇDX-nin hərbi vətənpərvərliklə bağlı keçirdiyi tədbirlər təqdirlayiqdir”***

Ordumuzun güclənməsi, onun döyüş qabiliyyətinin, peşəkarlıq səviyyəsinin yüksəldilməsi ölkəmizin əldə etdiyi ən böyük uğurlardan biridir. Hansı ki, 2016-cı ilin aprel döyüşlərini bu uğurun praktiki isbatı hesab etmək olar. Lakin torpaqlarımızın hələ də işğal altında qalması, erməni təxribatının bu gün də davam etməsi ordumuzun hazırlıq səviyyəsini artırmaq səylərinin davam etdirilməsini zəruri edir.

Moderator.az olaraq Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilovla söhbətimizdə ordumuzun mövcud hazırlıq səviyyəsi, gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin önəmi, milli hərbi-sənaye kompleksinin durumu və s. kimi məsələlərə aydınlıq gətirməyə çalışdıq.

-Cəlil müəllim, ordumuz 2016-cı ildə olduğu kimi, 2017-ci ildə də cəbhəboyu təşəbbüsü əldə saxladı. Bilmək istərdik ki, bunun qarşıda bizi gözləyən böyük qələbənin ilkin şərtlərindən biri hesab etmək mümkündürmü?

-Təbii ki, bu, qələbə üçün vacib amillərdən biridir. Hazırkı vəziyyət bizə ordunun hər an müharibəyə hazır olmasının vacibliyini diktə edir. Biz torpaqlarımızı erməni separatçılarından azad etməyə hazır olmalıyıq. Ordumuz yüksək döyüş, eləcə də mənəvi-psixoloji hazırlığa malik olmalıdır. Ordu düşmən üzərində qələbəyə nail olmaq üçün xüsusi hazırlığını mütəmadi artırmalıdır.

Təsadüfü deyil ki, Silahlı Qüvvələrimizə həm Ali Baş komandan, həm də ordu rəhbərliyi tərəfindən xüsusi diqqət var. Xarici ölkələrdən ən müasir hərbi texnikanın alınması, mütəmadi hərbi təlimlərin keçirilməsi, peşəkarlığın artırılması, düşmən mövqelərinə dəqiq və ölümcül zərbələrin endirilməsinə hazırlıq bu diqqətin göstəricisidir. Ordu yüksək döyüş hazırlığına malik olmaqla daim düşmən mövqelərini izləməli, onları nəzarətdə saxlamalıdır.

Ordumuzun qonşu dövlətlərlə - Rusiya, Türkiyə, Gürcüstanla da birgə həyata keçirdiyi təlimlər də bu məqsədə xidmət edir. Bütün bunlar döyüş hazırlığının yüksəlməsinə təsir edən amillərdir.

Biz hər an Ali Baş komandanın “hücum” əmrinə hazır olmalıyıq. Bunun üçün isə peşəkarlığın artırılması vacibdir.

-Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) mütəmadi surətdə “Vətənin müdafiəsinə hazıram” mövzusunda tədbirlər keçirir. Hansı ki, həmin tədbirlərdə Qarabağ müharibəsi veteranları da iştirak edir, yeniyetmələrə və gənc nəslin nümayəndələrinə öz xatirə və tövsiyyələrini dilə gətirir. Sizcə bu cür tədbirlər gənc nəsildə vətənpərvərlik əhval-ruhiyyəsinin yüksəldilməsi baxımından nə dərəcədə zəruridir?

-Hərbi vətənpərvərlik tərbiyəsi uşaq bağçalarından, orta məktəblərədən başlamalıdır. Mən SHXÇDX-nin keçirdiyi bu cür tədbirləri təqdirlayiq hesab edirəm. Respublika Veteranlar Təşkilatının həm Gənclər və İdman Nazirliyi, həm Hərbi Prokurorluqla birlikdə həyata keçirdiyi Tədbirlər Planı mövcuddur. Təhsil Nazirliyi ilə də birgə tədbirlər keçirmək niyyətindəyik. Bunda əsas məqsəd gənc nəslin nümayəndələrində orduya marağı artırmaq, hərbi-vətənpərvərlik tərbiyəsini yüksəltməkdir. Biz istəyirik ki, gənclərimiz həqiqi hərbi xidmətə, bir məcburiyyət olaraq yanaşmasınlar. Buna sevgi ilə, qəlbən can atsınlar. Gəncləri elə hazırlamaq lazımdır ki, onlar vətən borcunu ləyaqətlə yerinə yetirsinlər. Elə etmək lazımdır ki,mənəvi-psixoloji hazırlıq baxımından bizim əsgəri gücə bərabər güc olmasın. İstəyirik ki, hər bir əsgərimiz döyüşə Mübariz kimi, Fərid kimi köklənsin. Hər bir gənc torpaqları işğaldan azad etməyə hər an hazır olmalıdır.

-Necə hesab edirsiniz, gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində milli tariximizə müraciət etməyə, tarixi qəhrəmanlarımızın təbliğinə yer ayırmağa ehtiyac varmı?

-Təbii ki, buna böyük ehtiyac var. Biz gənc nəsildə vətənpərvərlik ruhunu yüksəltmək üçün tarixi faktlardan istifadə etməliyik. Hansı ki, tariximiz bu baxımdan xüsusilə zəngindir. Hazırda 100 illiyini qeyd etməyə hazırlaşdığımız Xalq Cümhuriyyəti dövründə Azərbaycan Ordusu Qarabağda erməni separatçılarını məğlubiyyətə uğratdı. II Dünya Müharibəsində 124 nəfər Azərbaycan döyüşçüsü Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Minlərlə azərbaycanlı mühribədə göstərdiyi şücaətə görə SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilib. Aprel döyüşlərində də əsgər və zabitlərimiz böyük qəhrəmanlıqlar ortaya qoydular. Bu gün ordumuz bu qəhrəmanlıqları təkrarlamağa hazırdır.

-Azərbaycanda hərbi sənayenin inkişafı istiqamətində ciddi addımlar atılır. Necə hesab edirsiniz, müharibə şəraitində olan bir ölkə üçün hərbi sənayenin inkişafı nə dərəcədə vacibdir?

-Prezidentimizin strateji addımlarından biri Müdafiə Sənayesi Nazirliyinin yaradılması oldu. Bu, çox vacib bir məsələdir. Elə dövlətlər var ki, onlar müharibə aparan dövlətlərə silah-surat satışına qadağa qoyub. Bu gün ölkəmiz bu məsələdə digər dövlətlərdən çox da asılı vəziyyətdə deyil. Təbii ki, güclü dövlətlərdən müəyyən silah-sursat alırıq. Ancaq bu gün silahların çoxu ölkəmizin özündə istehsal edilir.

Milli hərbi sənayenin inkişafı ölkəmizə həm hərbi, həm də iqtisadi maraqlar baxımından zəruridir. Bizim istehsal etdiyimiz bir çox silah növləri var ki, bu silahlar beynəlxalq sərgilərdə nümayiş olunur, onlara xarici dövlətlərin marağı böyükdür. Bu baxımdan ölkəmizdə milli hərbi sənayenin inişafı müstəsna önəmə malikdir.

-Bəzən bu cür fikirlər səslənir ki, müharibə başlayacağı təqdirdə I Qarabağ müharibəsinin iştirakçılarının təcrübəsinə ciddi ehtiyac olacaq. Sizcə Qarabağ uğrunda yeni bir müharibə başlayacağı təqdirdə I Qarabağ müharibəsinin iştirakçılarının təcrübəsinə doğrudan da böyük ehtiyac yaranacaqmı?

-Əvvəla, mən bitməmiş Qarabağ müharibəsi deyərdim. Çünki Qarabağ uğrunda 100 ildən çoxdur ki, mübarizə aparılır, həmin mübarizə bu gün də davam edir.

Təbii ki, təcrübəyə hər zaman ehtiyac var. Keçmişin dərslərinə hər zaman müraciət etmək lazımdır. Həm Qarabağ, həm də Əfqanıstan müharibəsinin iştirakçılarının təcrübəsi bu baxımdan önəmlidir. 2016-cı ilin aprel döyüşləri zamanı yüzlərlə müharibə veteranı müraciət edərək ön xətdə getmək istəklərini bildirdilər. Ancaq onlara elə bir ehtiyac olmadı. Bu gün ordumuz düşmənin öhdəsindən layiqincə gəlməyə qadirdir. Ordudakı zabitlərimiz yüksək təhsilli zabitlərdir. Əsgərlərimizin də döyüş hazırlığı, peşəkarlığı yüksək səviyyədədir. Ancaq şübhəsiz ki, veteranların ordumuzla birliyi də həmişəki kimi məqsədəuyğun olardı. Bunu hər şeydən öncə veteranların özü arzulayır. Unutmayaq ki, bu vətən hamımızındır və onun işğal altında olan ərazilərinin azadlığı üçün hər birimiz əlimizdən gələn fədakarlığı əsirgəməməliyik.

***Seymur Əliyev***

# Qaraqoyunludan başlanan mənalı ömür yolu

Qərbi Azərbaycanda Qaraqoyunlu adlanan, Qara Yusiflə Uzun Həsənin qoşunlarının döyüşünün şahidi olan, özündə çoxlu tarixi hadisələri, qanlı vuruşları, özündə əks etdirən, tarixi Azərbaycan torpağı olan, çox gözəl bir ərazi var. Bu ərazinin tabeliyində olan on dörd kəndin hamısında ta qədimlərdən yalnız azərbaycanlılar yaşayıb. Bu ərazi Çayqovuşandan-Dilican-Qazax şosse yolunun yanından başlayaraq, Şimal-Şərqə doğru Tərsə (Getik) çayın sahili boyu uzanan dərənin sağ və sol tərəflərində yerləşir. Bu ərazidəki Haqqıxlı, Alaçıqqaya, Mirteyil, Ağkilsə, Polad, Göyərçin, Salah, Qaraqaya, Yanıqpəyə, Çaykənd, Çıvıxlı kəndləri uzun müddət Gəncə quberniyasının tərkibində olub. Həm də bu yerlər vaxtı ilə məşhur el qəhrəmanı Qaçaq Kərəmin oylağı kimi də ad qazanıb. O, özünü çarın əsgərlərindən qorumaq üçün məhz bu yerləri özünə sığınacaq seçib. Həmin yerlər də xalq arasında Kərəm qayası və Kərəm meydanı adlanır. Burada məskunlaşan azərbaycanlıların doğma Azərbaycan dilində yeddi orta və yeddi ibtidai məktəbləri fəaliyyət göstərib. Qaraqoyunluda ilk təhsil ocağı Çaykənd məktəbi olub. Bu məktəb 1921-ci ilə kimi ibtidai-dördillik, 1921-1923-cü illərdən başlayaraq. 1936-cı ilə kimi natamam orta və 1937-1988-ci illərədək, yəni, azərbaycanlılar, erməni gavurları tərəfindən zorla öz ata-baba yurdlarından çıxarılana qədər orta məktəb kimi fəaliyyət göstərib. Çaykənd, Qaraqoyunlu adlanan ərazidə kovxalıq-kəndxudalıq dövründə də mərkəz olub. Bu ərazi çar Rusiyasının tərkibində olanda da, Çaykənd kəndinin mərkəzində rus imperiyasının nümayəndələri üçün səkkiz otaqlı bir bina inşa olunur. 1905-ci ildə inşa olunan bu binanın dörd otağı Qaraqoyunlu ərazisindəki gənclərə rus dilində dərslər keçmək üçün sinif otaqları üçün ayrılıb. O biri dörd otaq isə "Zayez" adlanaraq, gələn qonaqların qalması üçün "Qonaq otaqları" kimi istifadə olunub. Sovet hakimiyyəti qurulandan sonra isə bütün bu otaqlar məktəbə verilib. Uzun müddət, yəni 1937-1977-ci illərdə həmin otaqlarda Çaykəndin yeniyetmələri və cavanları orta təhsil alıb.

Bu kəndin ilk ibtidai sinif məzunlarından biri də məqaləmizin qəhrəmanı Murad Mahmud oğlu Zeynalovdur. O, 1908-ci ildə Gəncə quberniyasının Qazax qəzasının ilican nahiyyəsinin Çaykənd kəndində dünyaya göz açıb. Murad, kənddə fəaliyyət göstərən ibtidai məktəbin başlanğıc sinifində oxuyub və oranı 1924-cü ildə bitirib. Orta təhsil almağa imkanı olmadığı üçün o, kənddə qalıb və əmək fəaliyyəti ilə məşğul olub. Belə ki, gənc Murad kolxoz təsərrüfatının bütün sahələrində çalışıb. Yer də şumlayıb, ot da biçib, araba ilə dərz də daşıyıb və qısa vaxtda özünün nümunəvi əməyi ilə ad qazanıb. O vaxtlar Qaraqoyunlu adlanan ərazi Sovet Azərbaycanın tərkibində olduğuna görə Murad Zeynalov öz həmyerliləri Hacı Mehdiyev, Tanrıverdi İsgəndərov, Məmməd Kərimov, Sayad Abdullayev, Məzahir İbrahimov və başqa həmyerliləri ilə birlikdə, gənc respublikanın Milli Ordusunda xidmət edib. Hərbi xidməti başa vurandan sonra Murad Zeynalov yenidən kəndə qayıdaraq, əmək fəaliyyətini davam etdirib. Böyük Vətən müharibəsi başlayan zaman Murad başqa həmvətənləri kimi, Vətəni qorumağa gedib. Cəbhədə göstərdiyi igidliklərə görə Murad Zeynalov bir neçə döyüş medalları ilə təltif olunub. Və 1943-cü ildə gedən ağır döyüşlərin birində Murad Zeynalov ağır yaralanıb. O, müalicə olunduqdan sonra belə məsləhət olunub ki, arxa cəbhəyə göndərilsin. Onu 1943-cü ildə Çelyabinsk Metallurgiya zavoduna işləməyə göndəriblər. 1946-cı ilə kimi bu zavodda işləyən Murad Zeynalov, sonra Sumqayıt şəhərinə gəlib və burada metallurgiya üzrə mütəxəssis kimi Boruyayma zavodunun tikintisində iştirak edib. Həmin zavod Sumqayıt şəhərinin ilk birinci katibi və bu zavodun ilk direktoru, metallurgiya sahəsində ali təhsilli mütəxəssis olan Yəhya Məmmədovun çox böyük işgüzarlığı, təşkilatçılığı ilə 1953-cü ildə ilk məhsul verməyə başlayır. Və çox maraqlı bir faktdır ki, 55 ildə bu zavodun istehsal etdiyi borular bir düz xətt üzrə birləşdirilsə, ekvator boyunca altı dəfədən çox dövr edər. Həm də bu Boruyayma zavodunun məhsulları təkcə keçmiş Sovetlər Birliyinə yox, Bolqarıstana, Hindistana, Almaniyaya, Ruminiyaya, Macarıstana, Polşaya, Kubaya, Əfqanıstana və dünyanın onlarca başqa ölkələrinə göndərilirdi. O vaxt bu müəssisə Azərbaycanda ən böyük metallurgiya müəssisəsi olduğuna görə dövlətin çox böyük nəzarətində olub. Murad Zeynalov da mütəxəssis kimi, poladəritmə sexində əmək fəaliyyətini davam etdirməyi qərara alıb. Beləliklə onun sexdəki fəaliyyəti düz otuz il davam edib.

Sumqayıt şəhərinin ilk metallurq mütəxəssislərindən olan Murad Zeynalov şəhərin və zavodun quruculuq işlərində də yaxından iştirak edib. Belə ki, ilk Metallurgiya zavodunun sexlərinin artmasında və genişləndirilməsində onun təşəbbüskarlığı, fədakarlığı zavod rəhbərliyi tərəfindən dəfəllərlə qiymətləndirilib. Onun bu əməksevərliyi bütün işçilərə nümunə göstərilib. Bax, bütün bu əmək rəşadətlərinə və illik planları iki dəfədən artıq yerinə yetirdiyinə görə Murad Zeynalov 1958-ci ildə ən yüksək ada-Sosialist Əməyi Qəhrəman adına layiq görülərək, Qızıl Ulduz medalı ilə təltif olunub. Lenin Ordeninə layiq görülüb. Onun Sosialist Əməyi Qəhrəmanı kimi böyük fəxri ad alması və 50 illik yubileyi ilə əlaqədar olaraq, həmin vaxt Çaykənd kəndində qəhrəmanın şərəfinə təntənəli yubiley şənliyi keçirilib. Murad Zeynalovun Sosialist Əməyi Qəhrəmanı kimi şərəfli ada layiq görülməsi Çaykənd kəndinin və oxuduğu məktəbin də nüfuzunun artmasına səbəb olub. Bu münasibətlə kənd məktəbində Murad Zeynalov guşəsi də yaradılıb. Həmin guşədə qəhrəmanın şərəfli həyat yolu geniş formada işıqlandırılıb. Bu da burada təhsil alan məktəblilər üçün çox böyük bir örnək olub. Elə 1958-ci ildən başlayaraq, Azərbaycanda da Murad Zeynalovla bağlı çoxlu tədbirlər keçirilib. Onunla bağlı qəzetlərdə, jurnallarda çoxlu məqalələr çap olunub, haqqında kitablar yazılıb. Murad Zeynalovun şərəfli ömür yolu, Azərbaycan Sovet Ensiklopediyasına daxil edilib.

O, zavodun Fəhlə Həmkarlar Komitəsi İdarə Heyətinin, zavod direktorluğu komissiyasının üzvü kimi də fəaliyyət göstərib. Belə ki, həmin vaxtlar Azərbaycan Boruyayma zavodu olan bu nəhəng müəssisədə on iki mindən artıq adam işləyirdi. Həmin adamların ailə üzvləri, övladları da bu zavod ilə bağlı insanlar idi. Bütün bu insanların sosial qayğılarının həll olunmasında, rifah halının yüksəlməsində Murad Zeynalov da əlindən gələni edirdi. Bütün bu işlərindən başqa o, Sumqayıt şəhərinin abadlaşmasında və genişlənməsində şəhər sovetinin deputatı kimi ictimai fəallığı ilə seçilirdi. Çünki şəhər əhalisi də ondan çox şey gözləyirdi. Çünki Murad Zeynalov sözü bütöv, təşkilatçı insan idi. Təkcə yaşayış binalarının, sosial obyektlərin tikilməsinə, yolların, meydançaların salınmasına yox, həm də şəhərin yaşıllaşması üçün deputat kimi əlindən gələni edirdi. Yuxarıda yazdığımız kimi bu il artıq yaranmasının 55 ili tamam olan "Azərboru" Açıq Səhmdar Cəmiyyətinin (keçmiş Azərbaycan Boruyayma zavodu) ərazisində olan yaşıllıqların və bütün tikililərin hər birində Murad Zeynalovun da əməyi var. Amma çox ürək ağrıdası işdir ki, vaxtı ilə on iki mindən çox insanın çalışdığı bu müəssisə bu gün demək olar ki, işləmir. Sexlərin çoxu yararsız vəziyyətə düşür.

Murad Zeynalov 1966-cı ildə zavodda baş verən qəza nəticəsində, iş vaxtı aldığı əlilliyə görə fərdi təqaüdə göndərilib. 73 yaşında isə haqq dünyasına qovuşub. Onun qəbri Saray qəsəbə qəbirstanlığındadır. Baxmayaraq ki, bu məşhur metallurq şəhər rəhbərliyi və işlədiyi müəssisə tərəfindən unudulub. Ancaq həmyerliləri hər il ad günündə bir yerə yığışaraq, onun qəbrini ziyarət edir, ömrünün yaddaşlarda qalan səhifələrini vərəqləyərək, adını uca tuturlar.

Bu il Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın ilk metalurqlarından biri, həyatının çox böyük hissəsini Sumqayıt şəhərinin və onun metallurgiyasının inkişafına həsr etmiş və Azərbaycan Boruyayma zavodunun təkcə keçmiş Sovetlər Birliyində yox, bir sıra xarici ölkələrdə də tanınmasında böyük əmək sərf etmiş Murad Zeynalovun 2018-ci ildə 110 yaşı tamam olur. Çox əfsus ki, onun bu 100 illik yubileyi



şəhər səviyyəsində qeyd olunmadı. Yəqin ki, ilin əvvəlində onun 110 illik yubileyinin Sumqayıt şəhərində geniş formada qeyd olunması planlaşdırılacaq. Biz bunu böyük ümidlə gözləyirik. Çünki belə məşhur mütəxəssislərin yubileylərinin keçirilməsinə artıq Sumqayıt şəhər rəhbərliyi başlayıb. Belə ki, bir qrup şəhər ziyalılarının təşəbbüsü ilə məşhur kimyaçı, bu sahədə uzun illər rəhbər vəzifədə işləmiş, yeddi səmərələşdirici təklifin və beş elmi ixtiranın müəllifi, Azərbaycan Dövlət mükafatı laureatı Zamin Hüseynovun 70 illik xatirə gecəsinin yüksək səviyyədə şəhər miqyasında keçirilməsi çox böyük təqdirəlayiq hadisədir. Bu tədbir Sumqayıtda çox böyük marağa səbəb olub. Biz inanırıq ki, bu yubiley tədbirləri davamlı olacaq. Sumqayıt şəhərinin, onun kimya, metallurgiya sənayelərinin, tikintisinin, səhiyyəsinin, təhsilinin, elminin, mədəniyyətinin, idmanının və başqa sahələrinin qurulmasında əvəzsiz xidmətləri olan Murad Zeynalov, Yəhya Məmmədov, Kamran Hüseynov, Zəminə Həsənova, Zülfi Hacıyevin, Nurəddin Babayev, Ucal Qasımzadə, Kamal Axundov, Aslan Osmanov, Zülfü Hacıyev, Dadaş Dadaşov, Şəmşad Pənahov, Ağaxan Ağayev, Sərvər Bəbərbəyli, Kərim Axundov, Zəbi Abdullayev, Möhtərəm Məmmədova, Qəzənfər Quliyev, Təvəkkül Məmmədov, Fərman Cəfərov, Tofiq Kərimov, Zəkulla Tağıyev, Mustafa Salahov, İzzət Sadıxov, Minarə Tahirova, Zərifə Təhməzova, Əşrəf Veysəlli, Natiq Qulubəyov və onlarca başqalarının ad günlərini, yubileylərini keçirmək lazımdır ki, gənc nəsil üçün bunlar bir örnək olsun. Axı 2019-cu ilin noyabr ayında Sumqayıta şəhər statusu verilməsinin 70 ili tamam olacaq. Bax, bu deviz altında həmin yubileyə qədər Sumqayıt üçün əvəzsiz işlər görən bu insanların, böyük mütəxəssislərin, tanınmış şəxsiyyətlərin yubileyləri, ad günləri qeyd olunsa, dünyalarını dəyişənlərin yaşadıqları evlərə xatirə lövhələri vurulsa, adları əbədiləşdirilsə, bu sözün həqiqi mənasında böyük xeyirxah iş olar. Bununla da şəhər rəhbərliyi Sumqayıt sakinlərinin daha böyük etimadını, hörmətini qazanar.

Cənab Prezidentimiz İlham Əliyevin layiqli kadrı olan Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun şəhərin görkəmli ziyalılarının, əmək veteranlarının, şəhərin sosial-iqtisadi inkişafında böyük xidmətləri olan şəxslərin dövlət orden və medallarla təltif edilməsində xüsusi təşəbbüsü və inkar edilməz xidmətləri hamımıza məlumdur. Şəhərin ilk əmək qəhrəmanı olan Murad Zeynalovun xidmətlərini nəzərə alaraq onun adının əbədiləşdirilməsi sahəsində görüləcək işlərin icrası, inanırıq ki, şəhər rəhbərliyinin diqqət və qayğısında olacaqdır. Anbaan, saatbasaat gözəlləşən Sumqayıtımızın görkəmli insanlarının yad edilməsi, onların yubileylərinin keçirilməsi şəhər rəhbərliyinin, şəxsən Zakir Fərəcovun həmişə diqqət mərkəzində olmuşdur.

Niyaz Süleymanov,
Sumqayıt şəhər 16 nömrəli tam orta məktəbin direktoru

# MÜHARİBƏNİN ALOVLU QASIRĞASI İÇİNDƏN

Min doqquz yüz qırx birinci il, müharibənin beşinci günü ordumuz faşistlərin güclü təzyiqi nəticəsində geri çəkilməyə məcbur oldu. Ön cəbhədəki sahələrdən birində sanitar taqımının komandiri hərbi feldşer Mirzəcan Məmmədovun xidmət etdiyi hissə müdafiə xətti tutmuşdu. Sübh yenicə açılırdı. Gecə yağan yağış sinəsi mərmilərdən, tank tırtıllarının ağırlığından dəlik-dəlik olmuş torpağı islatmışdı. Budur, qarşıdakı səngərə bir-birinin ardınca bir neçə mərmi düşür. Düşmən qısa müddətli top atəşindən sonra əvvəlcə tankları, onların arxasınca da qaçaraq atəş açan avtomatçıları irəli buraxdı.

Yox... əclaflar... keçməyəcəksiz, - deyə-deyə qaraqaşlı əsgər tank əleyhinə topa tərəf sıçradı.

Atəş.... Qabaqda gələn tankın tırtılları altında partlayış gur işıq saçdı. Maşın yaralanmış heyvan kimi bağırdı və yerində fırlanıb böyrü üstə çevrildi. İkinci atəşdən sonra isə tank tüstülədi. Sağ və sol cinahdan düz nişanla o biri toplarımızdan da atəş açıldı. Bir neçə tank alışdı, qalanları isə geri döndülər.

Bizim səngər boyu gurultulu «Ura!» səsləri eşidildi və döyüşçülər əks-hücuma keçdilər.

Mirzəcan sanitar çantasının çiyninə aşırıb səngərin qırağındakı sipərdən sıçrayıb cəld yaralı əsgərə tərəf sürünməyə başladı. Onun başı üzərində uçan düşmən gülləlləri vızıldayan arılar tək şütüyürdü. Bu güllələr artıq bir neçə əsgəri yerə sərmişdi.

- Siz mənə görə narahat olmayın, - deyə yaralı qurumuş dodaqlarını tərpətdi. - Mən ayağımdan yaralanmışam. Məndən də ağır yaralılar var.

Lakin Məmmədov artıq cəld hərəkətlə onun şalvarının balağını cırmışdı, yara çox ciddi idi: güllə onun dizini parçalamışdı.

-Siz yaman cəsursunuz, - deyə yaralı yenidən dindi.

Sanitar taqımının komandiri onun ayağını sarıyıb, gözlərinə baxaraq gülümsədi.

-Heç nə olmaz, güllə məndən qorxur...

Başı kaskalı tibb işçisinin gülüşü əsgərin ürəyini isitdi, sanki ağrısını azaltdı. O səhər Məmmədov öz köməkçiləri ilə birgə bir çox yaralıları atəş altından çıxarıb tibbi hissəyə gətirmişdilər.

Döyüşçülər faşistlərin hücumunun qarşısını aldıqdan sonra əsgərlərdən biri komandirə müraciət etdi: Olarmı atəş xəttini qumbaralarla şumlayaq?

Razılıq alan döyüşçü qumbara bağlamasını götürüb sipəri aşdı və ortalıqdakı «yiyəsiz» sahəyə süründü. Komandir durbinə yaxınlaşıb, yüngül duman arasından qoçağı tapdı. O, gördü ki, əsgər kaskası ilə nəm torpağı yararaq çox bacarıqla hər hündürlüyün arxasında, hər yarıqda gizlənərək irəliləyir. Yaxşı bəs bu nədir? Əsgərin başı qeyri-təbii halda qalxıb torpağa düşdü, sol əli azacıq yan tərəfə endi.

-Yaralanıb! - durbindən gözünü çəkməyən komandir dedi.

-Yaralanıb? - təkrar edən Mirzəcan Məmmədov səngər boyu qaçdı.

-Hara, Məmmədov? - deyə komandir qışqırdı.

Məmmədov qaça-qaça:

-Əsgəri xilas etməyə - dedi.

Məmmədov bacarıqla hərəkət edərək əsgərə tərəf sürünməyə başladı. Həyəcandan yanan üzü tər damlaları ilə örtülmüşdü. Yolu itirməmək üçün o, arabir başını qaldırıb baxırdı. Əsgərə özünü tez çatdıra bilsəydi.

Axır ki, sürünüb əsgərə yaxınlaşdı.

Dağıdıcı güllə əsgərin çiynini parçalamışdı. Məmmədov onu sürüyüb oyuğa saldı və sarğı ilə məşğul olmağa başladı. Döyüşçü gözlərini açdı.

-Ağrıdır? - deyə Məmmədov gülümsəyərək soruşdu.

-Dözümlüdür. Sizinçün qorxuram. Çox risk edirsiz. Düşmən güclü atəş açır...

Məmmədov bintin ucunu düyünləyib düşmən səngərinə tərəf nəzər saldı. Birdən onun qaşları çatıldı, düz onlara tərəf üç faşist sürünürdü. Mirzəcan cəld əsgərin silahını götürüb atəş açdı. Onun sərrast atəşi düşməni yerə sərdi. Elə bu zaman düşmən tərəf atəşdən silkələnib torpağı göyə qaldırdı.

-Bu nədir? - deyə yaralı pıçıldadı.

-Bizimkilərdir, atəş nöqtəsini partlatdılar - deyə Məmmədov sevincək cavab verdi.

O biri iki faşist isə tez geri dönüb öz səngərlərinə süründülər.

Əsgərlər Məmmədovu doğma qardaşlarıtək sevdilər. Cəbhə həyatı onu daha da möhkəmlətdi. Onun sayəsində sıraya qaytarılan və düşmənə yenidən zərbə endirən hər bir əsgər haqqında düşünəndə, bu fikir Mirzəcana qüvvət verir və müharibənin bütün əzab-əziyyətinə dözüm yaradırdı.

«Mənim əziz doğmalarım» - deyə o, yazırdı: «Biz indi müdafiədəyik. Ağır döyüşlər gedir. Lakin biz öz mövqeyimizi möhkəm saxlamışıq. Sizdən məktub gəlmişdi. Onu mənə gətirən dedi ki, «Mirzəcan, mahnı oxu, məktubu verim!» Mən onun xahişini yerinə yetirdim... Mənə tez-tez məktub yazın»...

Budur, Məmmədov sentyabr ayının gün, batanında Dneprin hamar qızıla çalan sularına baxır. Burada, iki kənd arasında düşmənin güclü artilleriya qrupu və iki piyada diviziyası yerləşdirilmişdi. Bu rayonda bir neçə gün idi ki, sakitlik hökm sürürdü. Əsgərlər deyirdilər ki, tufan gözlənilir.

Gecə hiss olunacaq dərəcədə aramla yerə hopurdu. Çayın o biri sahilində düşmən səngərlərindən göyə gözqamaşdırıcı fişəng buraxılırdı. Bu fişənglər sanki kiçicik paraşütə çevrilib mürgüləyən çayın üzərinə yaşıl işıq salıb suya enirdi. Bir saat sonra isə alay çayı keçmək əmri aldı.

Hər iki sahil canlandı. Həm buradan, həm o tərəfdən sular ətrafa sıçrayırdı. Uçan güllələrin qırmızı xətti qaranlığı yarırdı. Artilleriya atəşinin gurultuları altında sovet istehkamçıları tələsik çayı keçmək üçün keçidlər düzəltməyə başladılar. Artıq ilk yaralılar da vardı. Mirzəcan Məmmədov bu güclü atəşə fikir vermədən yaralılara yardım göstərirdi. Az sonra salınmış keçidlə o biri sahilə keçən hissələrimiz çox ağır döyüşə başladılar. Lakin düşmənin müqavimət göstərməsi üçün hələ də kifayət qədər gücü vardı. İkinci günün sonuna yaxın faşistlər güclü əks-hücuma keçib alayımızı mühasirəyə almaq təhlükəsi yaratdılar. Əsgərlərimizdən biri qorxuya düşüb bir qrup döyüşçüləri də özü ilə geri çəkirdi. Bu zaman Məmmədov bir yaralının yarasını sarıyıb o birinə tərəf süründü. Başın qaldırıb bu səhnəni görəndə o, gözlərinə inanmadı. Axı o, komsomolçu idi, belə rüsvayçılıqla razılaşa bilərdimi? Sanitar çantasını çiyninə ataraq Məmmədov qətiyyətlə dik ayağa qalxıb, əllərini havada yellədərək bərkdən əsgərləri çağırdı:

-Ardımca, irəli!

Döyüşçülər sanki yuxudan ayıldılar və komsomolçunun ardınca yenidən döyüşə atılıb faşistləri geri oturtdular.

İki döyüş ərzində Məmmədov köməkçiləri ilə birlikdə on beşdən çox yaralını xilas etmişdi.

1941-ci ilin iyul və avqust aylarında güclü müqavimətə baxmayaraq ordumuz düşmənin tank zərbələri altında Belorusiyanın içərilərinə tərəf geri çəkilməyə məcbur oldu. O günlərin ağrılı səhnələri: səmada uçan üzərində xaç nişanlı təyyarələr torpaqlarımızı bombardman edib pulemyot atəşinə tuturdu. Faşist quzğunları rəhm bilmədən dinc əhaliyə hücum edirdi. Hirsdən bizim insanların yumruqları düyünlənir, kin ürəkləri odlayırdı. «Lap süngü ilə faşistlərin üstünə atılardım», - deyə Məmmədov dəfələrlə düşünürdü. Lakin onların qarşısında daha çətin vəzifələr dururdu: hissələri birləşdirib elə döyüş təşkil etmək lazım idi ki, nəinki intiqam almaq, hətta düşməni geri oturtmaq mümkün olsun. Lakin müqavimətimizə baxmayaraq faşistlərin güclü sıxışdırmaları tank hücumları nəticəsində bizimkiləri geri çəkilməyə məcbur etsə də, ordumuz yenə də düşməni xeyli itkiyə məruz qoyub, onun planlarını alt-üst edirdi.

O vaxtlar, 1941-ci ildə... güclü döyüş gedirdi... Bıxov şəhəri ətrafında... qəddar, rəhmsiz döyüş... döyüş yoldaşları ilə birlikdə Mirzəcan Məmmədov da faşistlərin ağır hücumlarını növbəti dəfə dəf edirdi. Əlbəyaxa döyüş başladı. Dəhşətli, qanlı döyüş... Sanitar taqımının komandiri sağ baldırından ağır yaralanmışdı. O, huşunu itirir və səhərisi gün gözlərini açıb özünə gələndə faşistlər tərəfindən işğal olunmuş Moqilyov qospitalında olduğunu görür. Təxminən üç ay orada müalicə olunur.

Gizli təşkilatçıların köməyi ilə o, sağalmaqda olan yaralılardan döyüş qrupu təşkil edib, onlarla birlikdə qaçaraq Moqilyov-Usakino meşələrində yerləşmiş partizanlara qoşulur. Bir çox aylar ərzində Mirzəcan Məmmədov öz partizan dostları ilə faşistlərin qəniminə çevrilib böyük şöhrət qazanır. Dəstədə onun hörməti çox yüksək idi. Həm partizanlar, həm də əhali onu çox sevirdi və necə bacarırdılarsa köməklərini əsirgəmirdilər.

Qısa müddət ərzində partizanlar faşist işğalçılarının bir neçə eşelonunu partladıb, yüzlərlə hərbi texnika və canlı qüvvəsini məhv etmişdilər. O illərdə çətin, ağır və qəhrəmanlıq yolu keçmiş Məmmədov və onun döyüşçüləri öz qətiyyət və cəsarətlərilə seçilirdilər.

Qırx dördüncü ilin iyul ayı idi. Mirzəcan Məmmədov müharibənin ikinci dairəsinə qədəm qoyurdu. Bu vaxt Qızıl Ordunun hissələri gərgin döyüşlər aparıb Moqilyovu azad etdi.

Məmmədovun döyüşdüyü partizan dəstəsi fəaliyyət göstərən ordu sıralarına daxil edildi. Burada onlar çox mehribancasına qarşılanıb yemək və geyimlə təmin olundular, səhərisi gün isə onlar artıq ön cəbhədə vuruşurdular. Almanlar bizimkiləri çox əsəbi halda qarşıladılar. Faşistlər tez-tez havaya raketlər buraxıb neytral ərazini işıqlandırır, bizim ön xətti arasıkəsilmədən pulemyot və hər yarım saatdan bir minomyot atəşinə tuturdular. Müdafiə xətti geniş ərazini əhatə edirdi.

Bir dəfə səhər sübhdən faşistlər bizim mövqeləri güclü atəşə tutdu. Sonra atəşi müdafiəmizin dərinliklərinə yönəldib uzun müddət torpağı əzdilər.

Top atəşi qəfildən başladığı kimi də birdən kəsildi. Ətrafı qulaqbatırıcı sakitlik bürüdü. Mövqelərimiz boyu baş alıb gedən toz, duman, mərmi partlayışının iyi aramla seyrəlir, hər tərəf aydınlaşırdı. Budur, nəhayət ki, bizim tərəfdən gurultu qopdu və ətrafa müxtəlif səslər yayan minalar, mərmilər uçuşmağa başladı. Artilleriyaçılarımız almanların tikanlı məftillərinə toxunan ön xətti atəşə tutdu. Məftillərlə sarılmış dirəklər göyə qalxdı. Düşmən tərəfin bütün ön xətti toza, dumana büründü, artilleriyamız isə dayanmadan atəşi atəş dalınca açır, mərmilər əsgərlərin başı üzərindən vıyıltı ilə uçur və hər dəfə də onlar büzüşüb yerə yapışırdılar.

İrəli! Hücuma! Ura!

Səngərlərdən tökülüşüb düşmən tərəfə hücum edən əsgərlər bir anlıq tikanlı məftillərə çatıb dayanmalı oldular: keçid yox idi və qırılmış məftillər onların geyimlərinə ilişərək paltarlarmı didib-parçalayırdı. Qışqırmaqdan səsi batmış alay komandirinin boğuq səsi eşidildi:

- İrəli! İrəli!....

Davamı növbəti sayımızda

*A.Qritçenko*
*Tərcümə Ş.Cəfərov*

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN**
**1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

*Baş redaktor*
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:** 1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*